## ÜMUMİ SİYASƏT

**"GİLTEX" MMC** bir şirkət olaraq təcrübəli komandanın köməkliyi ilə, razılaşdırılmış spesikikasiyaya uyğun məhsul istehsal etmək, zamanında çatdırmaq və gözləntiləri qarşılamaq üçün imkanlarını artırmaq, inkişaf etdirməklə müştərilərə daha keyfiyyətli məhsul və xidmət təqdim etmək öhdəliyini üzərinə götürür.

**"GİLTEX" MMC** innovasiyaların cəlb olunması ilə proses və sistemli yanaşmada davamlı inkişafı təşviq edir.

**"GİLTEX" MMC** bütün müvafiq qanunlara, əsasnamələrə və təcrübələrə riayət edəcək və aşağıdakılar üçün öz səlahiyyəti daxilində tədbirlər görəcəkdir:

- Bütün fəaliyyətlərdə yerli dövlət qanunlarına əməl olunması;
- Müştərilərin ehtiyac, gözləntilərinin araşdırılması və təmin olunmasına çalışmaq;
- Müştəri məmnuniyyətinin və şikayətlərinin idarə olunması;
- Proseslərin effektivliyi üçün müvafiq mühitin təmin olunması;
- Bütün səviyyələr üzrə keyfiyyət idarəetmə sisteminin yaxşılaşdırlılmasına çalışmaq;
- Cəmiyyətin ümiumi fəaliyyətində yaranacaq riskləri nəzərə alaraq proseslərə təsirini minimuma endirmək üçün fəaliyyətləri icra etmək.

## MİSSİYAMIZ

Biz fərqli məhsullar istehsal etmək üçün kifayət qədər çevik, yenilikçi və xidmət yönümlü qabiliyyətimizdən istifadə edərək müştərilərimizin keyfiyyət standartlarına cavab verərək işləyirik.

Fəaliyyətimiz sosial məsuliyyəti təbliğ etməklə davamlı böyüməyə, yeni nailiyyətlər əldə etməyə yönəlmişdir.

Yeni innovasiyalardan istifadə etməklə müştəri tələbləri istiqamətlində - müvafiq spesifikasiya, keyfiyyətə uyğunluğun təmin olunmasına çalışırıq.

## KORPORATİV DƏYƏRLƏRİMİZ

Davamlı performansın əsasını təşkil edən korporativ dəyərlərimiz: Müştəri yönümlülük, keyfiyyət, innovasiylar, işçilərin rifahı, dayanıqlılıq.

## RƏHBƏRLİYİN MƏSULİYYƏTİ

**"GİLTEX" MMC** qətiyyətlə inanır ki, bütün idarəetmə sistemində keyfiyyətin təmini mühüm aspektlərdən biridir. Şirkət uyğun olmayan çıxışın qarşısını almaq üçün bütün menecer və nəzarətçilərdən keyfiyyətin idarəolunmasını öz vəzifə və məsuliyyətlərinin bir hissəsi hesab etməyi gözləyir.

**"GİLTEX" MMC** -nin idarəetmə sistemlərində keyfiyyətin təmini üçün rəhbərlik cavabdehdir. Bütün fəaliyyətlərdə keyfiyyətə nəzarət ediləcək və işimizin qiymətləndirilməsinin bir hissəsi kimi nəzərə alınacaqdır. Əlaqədar vəzifələr və məsuliyyətlər haqqında ətraflı məlumat daxili prosedurlarda göstərilmişdir.

## İŞÇİLƏRİN MƏSULİYYƏTİ

**"GİLTEX" MMC** qanunun tələblərinə, istehlakçı tələblərinə və idarəetmədə keyfiyyətin təminatına cavab vermək üçün bütün işçilərindən rəhbərliklə əməkdaşlıq etməyi tələb edir. İşçilərə istehsal olunan məhsulun keyfiyyətinə mənfi təsir edə biləcək riskləri minimuma endirməyi xatırladır. Bütün işçilərin vəzifə və məsuliyyətləri Keyfiyyət İdarəetmə Sistemində göstərildiyi kimi vəzifə təlimatlarında yer alacaqdır.

## MƏSLƏHƏTLƏŞMƏ

İşçilərimizin fəal iştirakı olamadan heç bir daxili qayda uğur qazanmayacaq. Əməliyyat komandamız vasitəsilə Keyfiyyət İdarətmə Sisteminə dair yaxşılaşdırmaların həyata keçirilməsi üçün iclaslar keçirilir.

**"GİLTEX" MMC -də** Keyfiyyət İdarətetmə Sistemi istiqamətinə nəzarət etmək və onu təkmilləşdirmək məqsədilə Keyfiyyətə Nəzarət və Keyfiyyət Təminatı şöbəsi təyin edilmişdir.

## TƏLİM

**"GİLTEX" MMC** işçilərinin idarəetmə sisteminə, məhsul keyfiyyətinə təhlükə yarada biləcək işlərin qarşısını almaq üçün təcrübəli komanda yaradılmasını təmin etmək məqsədilə Keyfiyyət İdarəetmə Sisteminin təliminə ehtiyac duyur. Belə təlim işçinin istiqamətləndirilməsi zamanı və işlədiyi müddətdə müntəzəm olaraq həyata keçirilir.

## UYĞUNUSUZ ÇIXIŞLARIN MƏRUZƏ EDİLMƏSİ VƏ ARAŞDIRILMASI

Keyfiyyətə Nəzarət şöbəsi yaranmış uyğunsuzluqların başvermə şəraiti və səbəblərini araşdırmaq, məruzə etmək üçün məsuliyyət daşıyır. Zəruri hallarda digər struktur bölmə rəhbərləri və əməkdaşları ona kömək edəcəkdir.

## SİYASƏTİN BƏYAN EDİLMƏSİ

Bu siyasətin surətləri bütün işçilərə çatdırılır və **"GİLTEX" MMC** -nin iş sahələrindən asılır. O, bütün kontraktorlar, müştərilər və qonaqların diqqətinə çatdırılır və digər maraqlı tərəflər üçün əlçatanlığı təmin edilir.

## SİYASƏTİN NƏZƏRDƏN KEÇİRİLMƏSİ

**"GİLTEX" MMC**-nin Keyfiyyət Siyasəti müntəzəm surətdə nəzərdən keçirilir və hər hansı qanunvericilik dəyişikliyi və/ya şirkətin ehtiyaclarından asılı olaraq ona düzəlişlər edilir. Lazım gəldikdə, işçilərin diqqətinə çatdırılması üçün yenidən paylanılır.

İcraçı Direktor ____________ Kamran Ağası

Müşhaidə Şurasının Sədri ____________ Kəmalə Nuriyeva

Tarix "16" iyul 2024 - cü il

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti GİLTEX Limited Liability Company Azerbaijan Republic